# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# «XALQ» BANKININ

# NİZAMNAMƏSİ

*(ikinci redaksiya)*

BAKI – 2021

"Dövlət qeydiyyatına alınmışdır"

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən

İdarə rəisi: Lalə Cəfərova

bu sənəd elektron imza vasitəsilə imzalanmışdır

«Təsdiq edilmişdir»

ASC «Xalq » Bankının Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə
(22 noyabr 2021-ci il tarixli 05 №-li Protokol)

Yığıncağın sədri
/ A.N.Ağayev

Yığıncağın katibi
/ D.B. Sədullayev

# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ «XALQ» BANKININ NİZAMNAMƏSİ

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bundan sonra «Bank» adlanacaq Açıq Səhmdar Cəmiyyəti "XALQ" Bankı Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunvericilik aktları, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, habelə bu Nizamnaməyə və qüvvədə olan qanunvericiliyə uyğun olaraq aldığı bank lisenziyasına müvafiq olaraq fəaliyyət göstərir.

1.2. Bank hüquqi şəxsdir, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Bank müstəqil balansa, üzərində tam

adı Azərbaycan və ingilis dillərində əks edilmiş möhürə, habelə əmtəə nişanı (nişan rəngi və emblemi) və müxtəlif növ bank hesablarına malikdir.

1.3. Bankın tam rəsmi adı:

| | |
|---|---|
| Azərbaycan dilində | - **Açıq Səhmdar Cəmiyyəti "Xalq" Bankı** |
| İngilis dilində | - **Open Joint-Stock Company "Xalq" Bank** |

1.4. Bankın qısaldılmış adı:

| | |
|---|---|
| Azərbaycan dilində | - **ASC "Xalq" Bankı** |
| İngilis dilində | - **OJSC "Xalq" Bank** |

1.5. Bankın təşkilati-hüquqi forması açıq səhmdar cəmiyyətidir.

1.6. Bank Azərbaycan Respublikası bank sisteminin ayrılmaz tərkib hissəsidir.

1.7. Bankın hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, 494-cü məhəllə, İnşaatçılar prospekti, 22L.

1.8. Bank qanunvericiliyə müvafiq qaydada filial, şöbə və nümayəndəliklər aça bilər. Filial, şöbə və nümayəndəliklər Bankın təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər.

1.9. Bank Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər hüquqi şəxsin təsisçisi (iştirakçısı) ola bilər.

1.10. Qüvvədə olan qanunvericiliyə əsasən Bank maliyyə bazarlarına nəzarət orqanının icazəsi ilə bir və ya bir neçə törəmə banka sahib olmaqla, bank holdinq şirkətinə çevrilə bilər və ya holdinq şirkət kimi fəaliyyət göstərə bilər.

1.11. Bankın idarəetmə strukturu "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş orqanlardan - Səhmdarların Ümumi Yığıncağından, Müşahidə Şurasından, Audit Komitəsindən və İdarə Heyətindən ibarətdir.

1.12. Bankın bu Nizamnamə ilə müəyyən edilməyən təşkilati məsələləri onun Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qəbul edilmiş Daxili Reqlamenti ilə tənzimlənir.

## 2. BANKIN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ VƏ PREDMETİ

2.1. Bankın fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq mənfəət götürməkdən və onu öz səhmdarları arasında bölüşdürməkdən ibarətdir.

2.2. Öz fəaliyyətində Bank aşağıdakı məqsədləri də rəhbər tutur:

2.2.1. Azərbaycan Respublikası iqtisadiyyatının, o cümlədən bank sisteminin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməkliyin göstərilməsi;

2.2.2. İstehlakçılara yüksək səviyyəli bank xidmətlərinin göstərilməsi.

2.3. Bankın fəaliyyət müddəti zamanla məhdudlaşmır.

2.4. Bank, bu Nizamnamənin 2.1-ci bəndində nəzərdə tutulmuş məqsədə nail olmaq üçün qüvvədə olan qanunvericiliyə uyğun olaraq aldığı bank lisenziyasında qadağan edilməyən, aşağıdakı fəaliyyət növləri ilə məşğul olur:

2.4.1. tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

2.4.2. kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə və vasitəçilik növləri;

2.4.3. fiziki və hüquqi şəxslərə qanunvericiliklə qadağan olmayan hesabların, o cümlədən yerli və xarici banklara müxbir hesabların açılması və aparılması;

2.4.4. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitlərinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;

2.4.5. ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri, bank köçürmə vekselləri və qanunverilikl icazə verilən digər ödəniş vasitələri) buraxılması;

2.4.6. öz hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin və borc öhdəliklərinin), qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və bu yarımbənddə qeyd edilən maliyyə alətlərinin, səhmlər və digər qiymətli kağızlar istisna olmaqla, satılması;

2.4.7. öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;

2.4.8. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;

2.4.9. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

2.4.10. maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;

2.4.11. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;

2.4.12. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

2.4.13. qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;

2.4.14. Beynəlxalq bank praktikasında qəbul olunan və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növləri.

2.5. Bank, Azərbaycan Respublikasının qanunvericiliyi ilə bankların həyata keçirmək hüququ olan digər əməliyyat və əqdlər də apara bilər.

## 3. BANKIN NİZAMNAMƏ KAPİTALI

3.1. Bankın Nizamnamə kapitalı hər birinin nominal dəyəri 100.48 (bir yüz manat 48 qəpik) manat olan 3.630.300 (üç milyon altı yüz otuz min üç yüz) ədəd adi adlı sənədsiz səhmdən ibarət olmaqla 364.772.544 (üç yüz altmış dörd milyon yeddi yüz yetmiş iki min beş yüz qırx dörd) manat məbləğində müəyyən olunur.

3.2. Bankın təsis edilməsi zamanı onun səhmləri tam həcmdə təsisçiləri arasında yerləşdirilir.

3.3. Səhmlər təsisçilər arasında 22 noyabr 2004-cü il tarixli təsis müqaviləsinə müvafiq olaraq bölüşdürülür.

3.4. Bank qanunvericiliklə yol verilən hədlərdə imtiyazlı səhmlər buraxa bilər.

3.5. Bank səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər. Bu zaman Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə malik ola bilməzlər.

3.6. Bank maliyyə bazarlarına nəzarət orqanının qabaqcadan yazılı icazəsi ilə və Bankın bütün kreditorlarına bildiriş göndərildikdən sonra, səhmlərin

nominal dəyərini azaltmaq və ya səhmlərin bir hissəsini satın alıb, onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər.

3.7. Əgər Bankın xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Bank dividend ödənilməsi elan etmir və dividend ödəmir.

## 4. SƏHMDARLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. Bankın səhmdarları aşağıdakı hüquqlara malikdirlər:

4.1.1. Bankın mənfəətinin bir hissəsini dividendlər şəklində almaq;

4.1.2. imtiyazlı səhmlərin sahibləri istisna olmaqla, Bankın idarə olunmasında iştirak etmək;

4.1.3. Bankın fəaliyyətinə dair məlumat almaq, onun mühasibat kitabları və digər sənədləri ilə tanış olmaq;

4.1.4. Bank ləğv edildiyi halda, kreditorlar ilə hesablaşmalardan sonra, əmlakdan qalan hissəni və ya onun dəyərini almaq;

4.1.5. Bankın Səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək və Səhmdarlarının Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;

4.1.6. Bankın fəaliyyətinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;

4.1.7. Bankın Müşahidə Şurasının və İdarə Heyətinin üzvlərinin səhlənkarlığına və Banka qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;

4.1.8. Bankın səhmlərinin satışı prosesində iştirak etmək;

4.1.9. Bağlanmış əqd nəticəsində Banka və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

4.1.10.Bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq.

4.2. İmtiyazlı səhmlərin sahibləri aşağıdakı əlavə hüquqlara malikdirlər:

4.2.1. Bankın maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində dividendlər almaq;

4.2.2. Bankın ləğvindən qalan əmlak hissəsini almaqda başqa adi səhm sahiblərinə nisbətən üstünlük hüququna malik olmaq.

4.3. Bankın səhmdarlarının vəzifələri aşağıdakılardır:

4.3.1. səhmlərin dəyərini Azərbaycan Respublikasının qanunvericiliynə müvafiq olaraq ödəmək;

4.3.2. Bankın fəaliyyətinə dair məxfi saxlanılması nəzərdə tutulmuş məlumatları məxfi saxlamaq və müştərilərin bank sirrini qorumaq;

4.3.3. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər vəzifələr.

4.4. Bankın hər hansı bir səhmdarının Bankın fəaliyyətinə dair təkbaşına qərarlar qəbul edib, onun yerinə yetirilməsini Bankın inzibatçılarından və ya digər işçilərindən tələb etməsinə yol verilmir.

## 5. SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞI

5.1. Səhmdarların Ümumi Yığıncağı Bankın ali idarəetmə orqanıdır.

5.2. Səhmdarlarının Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

5.2.1. Bankın Nizamnaməsini qəbul etmək, ona əlavə və dəyişikliklər etmək;

5.2.2. Bankın satılması, yenidən təşkili və ya ləğvi barədə qərarlar qəbul etmək, ləğvetmə komissiyasını təyin etmək;

5.2.3. Bankın Müşahidə Şurasının və İdarə Heyətinin üzvlərini təyin və azad etmək, bu orqanların əsasnamələrini təsdiq etmək;

5.2.4. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla Bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə qanunvericiliyə və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktlarına əsasən onların mükafatlandırılması və qüvvədə olan qanunvericiliyə əsasən əmlak məsuliyyətinə cəlb edilməsi haqqında qərarlar qəbul etmək;

5.2.5. Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adından və Bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;

5.2.6. Bankın Müşahidə Şurasının və İdarə Heyətinin hesabatlarını almaq və onların fəaliyyətinə qiymət vermək, hesabatlarını təsdiq etmək;

5.2.7. Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvünün özünün və ailə üzvlərinin birbaşa və ya dolayısı ilə malik ola bildiyi

mühüm kommersiya maraqlarını Bankın Müşahidə Şurası qarşısında açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;

5.2.8. Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;

5.2.9. digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək;

5.2.10. Bank tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi əsasında Banka aidiyyəti olan şəxslə dəyəri bankın aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

5.2.11. nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;

5.2.12. Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını, mühasibat balanslarını, mənfəət və zərərlər hesabatını təsdiq etmək, habelə maliyyə ili başa çatdıqdan sonra əldə edilmiş xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;

5.2.13. Bankın Daxili Reqlamentini qəbul etmək, ona əlavə və dəyişikliklər etmək;

5.2.14. Bankın fəaliyyətinin əsas istiqamətlərini və inkişaf strategiyasını müəyyənləşdirmək, Bankın biznes planını təsdiq etmək;

5.2.15. Bankın təşkilati strukturunu müəyyənləşdirmək;

5.2.16. Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;

5.2.17. Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;

5.2.18. növbəti və tələb olunduğu hallarda, növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;

5.2.19. Bankın büdcəsini qəbul və təsdiq etmək;

5.2.20. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər məsələləri həll etmək.

5.3. Bu Nizamnamənin 5.2-ci bəndində Səhmdarların Ümumi Yığıncağının səlahiyyətlərindən 5.2.13-5.2.19-cu yarımbəndlərdə nəzərdə tutulmuş səlahiyyətlər Bankın Müşahidə Şurasına həvalə edilir.

5.4. Bankın təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətli sayılır. Səhmdarların sonrakı ümumi yığıncaqları (o cümlədən yenidən və təkrarən çağırılan ümumi yığıncaqlar) bütün səsvermə hüququ olan səhmlərin azı 60 faizinin sahibi olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır. Bankın təsis yığıncağında onun yaradılması, Nizamnaməsinin qəbul edilməsi və idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar yekdilliklə qəbul edilir. Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, Bankın satılması, yenidən təşkili, başqa bankın alınması və Bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar yığıncaqda təmsil edilən səhmdarların 75 faiz səs çoxluğu ilə qəbul olunur. Bütün digər qərarlar yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur.

5.5. Səhmdarlar Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, Bankın nizamnamə kapitalındakı paylarına mütənasib səs hüququna malikdirlər. Hər bir səhmdar Səhmdarların Ümumi Yığıncağında özünün səs hüququnu həm şəxsən, həm də səlahiyyətli nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Etibarnamə yazılı şəkildə rəsmiləşdirilir və yığıncağın protokoluna qoşulur. Etibarnamə yığıncaq başlananadək verilir. Səhmdarları qanuni əsasda təmsil edən şəxslər üçün ayrıca etibarnamə tələb olunmur. Həmin şəxslər bu cür səlahiyyətlərini təsdiqləyən sənəd təqdim edirlər.

5.6. Səhmdarların növbəti və növbədənkənar yığıncaqları keçirilə bilər. Səhmdarların hər bir növbəti ümumi yığıncağının keçirilməsi günü, yeri, vaxtı və gündəlik üzrə materiallarla tanış olma qaydası barəsində bildirişlər, habelə həmin yığıncağın gündəliyi yığıncağın keçirilməsi gününə ən azı 45 təqvim günü qalmış səhmdarlara göndərilir və bu barədə kütləvi informasiya vasitələrində məlumat dərc etdirilir. Bildirişlə birlikdə göndərilən gündəliyə daxil edilməmiş məsələlər üzrə qərar qəbul

olunmasına yol verilmir. Növbəti yığıncaqlar ildə bir dəfədən az olmayaraq keçirilir. Növbəti yığıncaqlar Bankın hər il üçün maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından keçdikdən sonra ən geci iki ay ərzində keçirilir. Növbədənkənar yığıncaqlar səsvermə hüququ olan səhmlərin azı 5 faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər. Növbədənkənar yığıncaqların çağırılması qaydası və müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

5.7. Səhmdarların yığıncağında səsvermə hüququna malik olan bütün səhmdarlar təmsil olunmuşdursa, yığıncaq onun çağırılması vaxtından, üsulundan və reqlamentindən asılı olmayaraq, səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər

## 6. MÜŞAHİDƏ ŞURASI

6.1. Müşahidə Şurası Bankın idarə olunmasına və işinə ümumi nəzarəti həyata keçirir.

6.2. Bankın Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

6.2.1. Bu Nizamnamənin 5.2.13-5.2.19-cu yarımbəndlərində müəyyən edilmiş səlahiyyətlər;

6.2.2. Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Bankın İdarə Heyətindən hesabat almaq;

6.2.3. Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;

6.2.4. Səhmdarların Ümumi Yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;

6.2.5. Bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində Səhmdarların Ümumi Yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, maliyyə bazarlarına nəzarət orqanına isə bank qanunvericiliyinin və "Cinayət yolu ilə əldə edilmiş pul

vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;

6.2.6. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, Səhmdarların Ümumi Yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq həmin qanununun 10-cu maddəsinin tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;

6.2.7. Bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək;

6.2.8. Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda qabaqcadan maliyyə bazarlarına nəzarət orqanına əsasları göstərməklə yazılı bildiriş göndərmək və Səhmdarların Ümumi Yığıncağının növbədənkənar iclasını çağırmaq şərti ilə Bankı idarə və təmsil etmək;

6.2.9. maliyyə bazarlarına nəzarət orqanının normativ aktlarında nəzərdə tutulan hallarda, Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zoruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;

6.2.10. Bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul etmək;

6.2.11. Bu Nizamnamənin 5.2.10-cu yarımbəndi nəzərə alınmaqla, Bankın nizamnamə kapitalının 50 faizindən artıq olmayan məbləğdə Bank adından müvafiq əqdlərin bağlanması qaydalarını təsdiq etmək;

6.2.12. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun 24.3-cü və 25.1.10-cu maddələrinin tələbləri nəzərə alınmaqla, Bankın nizamnamə kapitalının 50 faizindən artıq məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;

6.2.13. Səhmdarların Ümumi Yığıncağının səlahiyyətinə aid olan hallar istisna olmaqla, aidiyyəti şəxslərlə dəyəri bankın aktivlərinin 5

faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

6.2.14. Qanunvericiliklə və ya bu Nizamnamə ilə Bankın Səhmdarlarının Ümumi Yığıncağının Bankın törəmə cəmiyyətlərinə münasibətdə müstəsna səlahiyyətlərinə aid edilən məsələlər istisna olmaqla qanunvericiliyə və ya Bankın törəmə təsərrüfat cəmiyyətinin nizamnaməsinə müvafiq olaraq törəmə cəmiyyətinin ali idarəetmə orqanının səlahiyyətlərinə aid olan məsələlər üzrə, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, törəmə cəmiyyətinin nizamnaməsinə əlavə və dəyişikliklər etmək, törəmə cəmiyyətinin nizamnamə kapitalını artırmaq və ya azaltmaq məsələləri üzrə qəbul edilməsi nəzərdə tutulan qərarları razılaşdırmaq və ya bu səlahiyyəti Bankın icra orqanına ötürmək;

6.2.15. Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək;

6.2.16. kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

6.2.17. Azərbaycan Respublikasının bank qanunvericiliyi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

6.3. Müşahidə Şurasının bu Nizamnamənin 6.2.5, 6.2.6, 6.2.8 və 6.2.10-cu yarımbəndlərinə əsasən qəbul etdiyi qərarlar Səhmdarların Ümumi Yığıncağının növbəti iclasının gündəliyinə daxil edilir, müzakirə olunur və münasibət bildirilir.

6.4. Bankın Müşahidə Şurası ən azı 3 üzvdən ibarət olmaqla, formalaşır. Şuranın üzvləri Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən səhmdarlardan və/və ya onlar tərəfindən vəkil olunan kənar şəxslərdən 3 ildən çox olmayan müddətə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təyin edilən fiziki şəxslərdir. Səhmdarların Ümumi Yığıncağı tərəfindən Müşahidə Şurasının tərkibi tək sayda olmaqla daha çox üzvdən formalaşdırıla bilər. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir. Müşahidə Şurası üzvlərinin muzdu Bankın bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya

əmək haqqı formasında yalnız Səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin edilə bilər.

6.5. Müşahidə Şurası onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

6.6. Müşahidə Şurasının iclasları ən azı üç ayda bir dəfə keçirilir. İclasların nəticələrinə dair protokol Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq qaydada tərtib edilir.

6.7. Müşahidə Şurasının qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Müşahidə Şurası sədrinin səsi həlledici sayılır.

6.8. Müşahidə Şurası Səhmdarların Ümumi Yığıncağının təsdiq etdiyi Əsasnamə əsasında fəaliyyət göstərir.

## 7. İDARƏ HEYƏTİ

7.1. İdarə Heyəti Bankın icra səlahiyyətlərinə malik kollegial idarəetmə orqanıdır.

7.2. Bankın İdarə Heyəti Bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

7.3. İdarə Heyəti Bankın fəaliyyətinə cari rəhbərliyi həyata keçirir.

7.4. İdarə Heyəti Bankın Səhmdarlarının Ümumi Yığıncağına və Müşahidə Şurasına hesabat verir.

7.5. İdarə Heyəti ən azı 3 üzvdən ibarət olmaqla formalaşır. İdarə Heyətinin üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 3 ildən çox olmayan müddətə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təyin edilirlər. Səhmdarların Ümumi Yığıncağı tərəfindən İdarə Heyətinin tərkibi tək sayda olmaqla daha çox üzvdən formalaşdırıla bilər. Onlar növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı İdarə Heyətinin üzvlərindən birini İdarə Heyətinin sədri təyin edir. İdarə Heyəti sədrinin səlahiyyətləri İdarə Heyətinin əsasnaməsində müəyyən edilir.

7.6. İdarə Heyəti onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

7.7. İdarə Heyətinin qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə

zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda İdarə Heyətinin sədrinin səsi həlledici sayılır.

7.8. Bu Nizamnamə ilə Bankın digər idarəetmə orqanlarının (Səhmdarların Ümumi Yığıncağının, Müşahidə Şurasının və Audit Komitəsinin) müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələlərin həlli Bankın icra orqanı olan İdarə Heyətinin səlahiyyətlərinə aiddir.

7.9. İdarə Heyəti Səhmdarların Ümumi Yığıncağının təsdiq etdiyi Əsasnamə əsasında fəaliyyət göstərir.

## 8. AUDİT KOMİTƏSİ VƏ DAXİLİ AUDİT

8.1. Bankın fəaliyyətinə nəzarət və audit mexanizmləri Audit Komitəsi və Daxili audit idarəsi vasitəsi ilə həyata keçirilir.

8.2. Audit Komitəsi və Daxili audit idarəsi Bankda müstəqil fəaliyyət göstərirlər.

8.3. Audit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir :

8.3.1. Bankın audit siyasətini və strategiyasını müəyyən etmək;

8.3.2. daxili audit planlarını təsdiq etmək və audit strukturunun fəaliyyətinə nəzarəti həyata keçirmək;

8.3.3. kənar auditin təyin edilməsi ilə əlaqədar Bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;

8.3.4. kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək;

8.3.5. Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;

8.3.6. daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;

8.3.7. Maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

8.4. Bankın Audit Komitəsi azı üç üzvdən ibarətdir. Komitənin üzvləri Müşahidə Şurası tərəfindən 3 ildən çox olmayan müddətə təyin edilirlər. Müşahidə Şurası tərəfindən Komitənin tərkibi tək sayda olmaqla daha çox üzvdən formalaşdırıla bilər. Komitənin üzvləri növbəti müddətə yenidən seçilə bilərlər. Müşahidə Şurası Komitənin üzvlərindən birini Komitənin sədri təyin edir. Audit Komitəsinin üzvlərinin əmək haqqı formasında muzdu Müşahidə Şurası tərəfindən təyin edilir.

8.5. Audit Komitəsi onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İclasların keçirilməsi qaydası Audit Komitəsi haqqında təsdiq edilmiş əsasnamədə müəyyən edilir.

8.6. Audit Komitəsinin qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir, üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Audit Komitəsi sədrinin səsi həlledici sayılır.

8.7. Daxili audit idarəsi Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və Bankın icra orqanı ilə qarşılıqlı surətdə Bankda daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçirir.

8.8. Daxili audit idarəsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin təqdimatı ilə Bankın Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.

8.9. Bankda Audit Komitəsinin və Daxili audit idarəsinin fəaliyyəti qüvvədə olan qanunvericiliyə və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktlarına uyğun şəkildə təşkil olunur.

8.10. Audit Komitəsi və Daxili audit idarəsi Müşahidə Şurasının təsdiq etdiyi əsasnamələr əsasında fəaliyyət göstərirlər.

8.11. Daxili audit idarəsi Audit Komitəsinə hesabat verir.

## 9. BANKLARLA VƏ MÜŞTƏRİLƏRLƏ MÜNASİBƏTLƏR

9.1. Azərbaycan Respublikasının qanunvericiliyi, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları və göstərişləri ilə, habelə lisenziyalar və icazələrlə məhdudlaşdırılan hallar istisna olmaqla, Bank digər banklarla qarşılıqlı surətdə Azərbaycan Respublikasının bank qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hər növ əməliyyatlar apara, qarşılıqlı depozit, o cümlədən müxbir və digər hesablar aça bilərlər.

9.2. Bank digər banklarla bank fəaliyyətinin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq edə bilər. Bu məqsədlə Bank Azərbaycan Respublikasının bank qanunvericiliyinə müvafiq olaraq digər banklarla pul vəsaitinin və qiymətli kağızların köçürülməsi, klirinq və hesablaşma mexanizmlərindən istifadə edilməsi, qiymətli kağızların depozitə qəbul olunması və digər ümumi bank xidmətlərinin göstərilməsi, üzvlərinin mənafelərinə kömək üçün qeyri-kommersiya birliklərinin yaradılması, habelə bank işinin inkişafını və

sabitliyini dəstəkləyən fəaliyyətin həyata keçirilməsi haqqında sazişlər bağlaya bilər.

9.3. Bankla onun müştəriləri arasında münasibətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, həmin Məcəlləyə müvafiq olaraq maliyyə bazarlarına nəzarət orqanı tərəfindən qəbul edilmiş normativ xarakterli aktlar və müqavilə əsasında həyata keçirilir.

9.4. Bank müştərisinin, yaxud onun müştərisi olmaq istəyən hüquqi və ya fiziki şəxsin tələbi ilə öz bank lisenziyasını, sonuncu hesabat ili üçün maliyyə hesabatlarını və auditor rəyini təqdim edir.

9.5. Bank yerləşdiyi binada yazılı formada depozitlərin (əmanətlərin) qəbul edilməsinin, kreditlərin verilməsinin, hesablaşma-kassa xidmətinin və pul köçürmələrinin aparılması şərtləri və qaydaları haqqında müştərilərinə məlumat verir.

9.6. Bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə Bank tərəfindən verilmiş kreditlərin ödənişi şərtlərini və qaydalarını sərbəst müəyyən edir.

9.7. Kredit üzrə faizlər Bankla müştəri arasında bağlanmış müqavilə şərtlərinə uyğun hesablanır və ödənilir. Faiz dərəcələri və Bank qarşısında borca görə verilməli olan digər ödənişlər yalnız borcun olduğu günlər üçün borc qalığı məbləğinə hesablanır.

## 10. MÜHASİBAT UÇOTU, HESABAT VƏ KƏNAR AUDİT

10.1. Bankın birinci maliyyə ili onun dövlət qeydiyyatından keçdiyi gündən başlayır və həmin ilin dekabrın 31-i qurtarır. Sonrakı maliyyə illəri yanvarın 1-dən başlayır və dekabrın 31-i başa çatır.

10.2. Azərbaycan Respublikası qanunvericiliyinə və Beynəlxalq Mühasibat Standartlarına uyğun olaraq mühasibat uçotunu aparır, fəaliyyətini və maliyyə vəziyyətini əks etdirən hesabatları, o cümlədən illik maliyyə hesabatları tərtib edir.

10.3. Bankın maliyyə hesabatları ayrıca olaraq Bankın və konsolidasiya əsasında (birləşdirilmiş əsasda) onun törəmə təsərrüfat cəmiyyətlərinin, filiallarının, şöbələrinin və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətini və maliyyə vəziyyəti barədə sistemləşdirilmiş məlumatları əks etdirir.

10.4. Bankın maliyyə fəaliyyəti hər il auditor fəaliyyətini həyata keçirmək üçün xüsusi razılığa (lisenziyaya) malik olan kənar auditor tərəfindən "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına uyğun olaraq yoxlanılır.

10.5. Bank maliyyə ilinin qurtarmasından ən geci beş ay müddətində Bankın kənar auditor tərəfindən təsdiqlənmiş konsolidasiya əsasında hazırlanmış maliyyə hesabatını auditor rəyi ilə birlikdə Bankın səhmdarlarına, habelə müştərilərin tələbi ilə onlara təqdim edir, həmin maliyyə hesabatını maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi forma, məzmun və müddətlərdə kütləvi informasiya vasitələrində dərc etdirir.

10.6. Bank maliyyə ilinin qurtarmasından ən geci beş ay müddətində konsolidasiya əsasında fəaliyyətlərini və maliyyə vəziyyətini əks etdirən auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatını auditor rəyi ilə birlikdə maliyyə bazarlarına nəzarət orqanına təqdim edir.

## 11. BANKIN LƏĞVİ, İFLASI VƏ YENİDƏN TƏŞKİLİ

11.1. Bank onun Səhmdarlarının Ümumi Yığıncağının qərarına əsasən könüllü, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq maliyyə bazarlarına nəzarət orqanı tərəfindən məcburi ləğb edilə bilər.

11.2. Bankın könüllü ləğvi "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada həyata keçirilir.

11.3. Bankın məcburi ləğvi və iflas proseduru Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həyata keçirilir.

11.4. Bank maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada və onun qabaqcadan yazılı razılığı ilə yenidən təşkil (birləşmə, başqa banka qoşulma, bölünmə, ayrılma və ya çevrilmə) edilə bilər.

## 12. YEKUN MÜDDƏALAR

12.1. Bank bank əməliyyatları haqqında bağlanmış müqavilələr və icra edilmiş müqavilələr (əqdlər) üzrə müvafiq sənədləri, o cümlədən elektron daşıyıcılarda olan informasiyanı, habelə fəaliyyətləri nəticəsində yaranan digər sənədləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddət ərzində saxlayır.

12.2. Bank eyniləşdirmə və verifikasiya sənədlərinin, habelə pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara dair sənədlərin "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində göstərilən müddətdə saxlanmasını təmin edir.

12.3. Bankın fəaliyyəti ilə əlaqədar olan, lakin bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

12.4. Bu Nizamnamə dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

Tikilib və nömrələnib
18 (on səkkiz) vərəqdə

ASC "Xalq" Bankının
Səhmdarlarının Ümumi
Yığıncağının sədri

A.N.Ağayev

**altı yanvar iki min iyirmi ikinci il**

Mən, **Bakı şəhəri 29 saylı notariat ofisinin xüsusi notariusu Mirzəzadə İslam Natiq oğlu** elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə 06.01.2022 tarixdə 12:12 saatda "https://www.e-taxes.gov.az/" keçid linkindən əldə edilmiş məlumat və ya sənədlərin surətinin düzgünlüyünü təsdiq edirəm.

Reyestrdə 1S-**49** № ilə qeyd edilib, informasiya sisteminə daxil edilib.
21.00 manat haqq tutulub

M.Y.

Notariat hərəkətini aparmağa
müvəkkil edilmiş şəxs__________________________________(imza)

çap tarixi: 06.01.2022 12:26
2274811000049

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*
*Рекомендуется проверить подлинность документа с помощью QR-кода.*
*It is recommended to check the authenticity of the document using a QR-code.*

www.notariat.az

Surəti doğrudur

**_İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi_**

*Qurumun adı* AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "XALQ" BANKI

*Qeydiyyata alındığı tarix* 23.12.2004

*Əvvəlki dövlət qeydiyyat №* 1104-A1-414

*Dövlət qeydiyyat № (VÖEN)* 2000296061

*Təşkilati-hüquqi forması* Açıq səhmdar cəmiyyəti

*Sahibkarlıq subyektinin meyarı* İri sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1065, BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, İNŞAATÇILAR PR., ev 22L

*Çıxarışın verildiyi tarix və №* 22.10.2024, 3-21-2-2-1/2-24964/2024

Cəfərova L.T.

**_İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi_**

*Qurumun adı* AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "XALQ" BANKI

*Dövlət qeydiyyat № (VÖEN)* 2000296061

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş əvvəlki)* 364,772,544.00 manat

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş hazırki)* 415,596,744.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*

"FOTON" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ - 16.1532 %, "YEVRO STANDART" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ - 33.8468 % və "İDEAL BİZNES KO." MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ - 50 %

*Müşahidə şurasının üzvləri* MƏMMƏDLİ ASİM MAHMUD OĞLU, BAĞIRLI XƏZƏR ARİF OĞLU, AĞAYEV ELXAN MURADXAN OĞLU

*Çıxarışın verildiyi tarix və №* 22.10.2024, 3-21-2-2-1/2-24964/2024

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* AÇIQ SƏHMDAR CƏMİYYƏTİ "XALQ" BANKI

*Dövlət qeydiyyat № (VÖEN)* 2000296061

*Qanuni təmsilçi* MƏCİDOV KAMRAN NAZİM OĞLU

*Çıxarışın verildiyi tarix və №* 22.10.2024, 3-21-2-2-1/2-24964/2024

Cəfərova L.T.

**iyirmi üç oktyabr iki min iyirmi dördüncü il**

Mən, **Bakı şəhəri 29 saylı notariat ofisinin Xüsusi notariusu Mirzəzadə İslam Natiq oğlu** elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə 23.10.2024 tarixdə 13:04 saatda "Elektron notariat" informasiya sistemindən əldə edilmiş məlumat və ya sənədlərin surətinin düzgünlüyünü təsdiq edirəm.

Reyestrdə 1S-**10352** № ilə qeyd edilib, informasiya sisteminə daxil edilib.
5.00 manat haqq tutulub

M.Y.

Notariat hərəkətini aparmağa
müvəkkil edilmiş şəxs______________________(imza)

çap tarixi: 23.10.2024 13:05
2474811**010352**

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*
*Рекомендуется проверить подлинность документа с помощью QR-кода.*
*It is recommended to check the authenticity of the document using a QR-code.*

www.notariat.az